# Milli Qurtuluş günündə yeni mənzillər

## *ƏƏSMN-nin sifarişi ilə Tərtər rayonunda inşa olunmuş 54 mənzilli yaşayış evi Qarabağ əlilləri və şəhid ailələrinin istifadəsinə verilib*



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr sektorundan verilən məlumata görə, nazirliyin sifarişi ilə Tərtər rayonunda inşa olunmuş 6 mərtəbəli 54 mənzilli yaşayış evi ölkəmizin ərazi bütövlüyü və Konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin istifadəsinə verilib. Mənzillərin təqdim olunması tədbirində əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib ki,1993-cü ilin 15 iyun günü xalqımızın Milli Qurtuluş Günü kimi Azərbaycan tarixinin ən şərəfli səhifələrindən birinə çevrilib və xalqımız hər il bu günü yüksək bayram əhvali-ruhiyyəsi ilə qeyd edir. Çünki həmin gün dünya şöhrətli siyasi şəxsiyyət ümummilli liderimiz Heydər Əliyevin xalqın çağırışı ilə yenidən respublika rəhbərliyinə qayıdışı Azərbaycanın o zaman məruz qaldığı son dərəcə kəskin hakimiyyət böhranından, yenicə qazanılmış dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən, vətəndaş qarşıdurmasından, xaos və anarxiyadan xilasına imkan yaratdı. Ulu öndərimizin zəngin dövlətçilik təcrübəsi, müdrik və uzaqgörən siyasəti, yorulmaz fəaliyyəti sayəsində Azərbaycanın müqəddəratı tənəzzüldən tərəqqiyə doğru dəyişdi, ölkədə dünyəvi dəyərlər əsasında müstəqil dövlət quruculuğu təmin olundu, uzunmüddətli sosial-iqtisadi inkişafın güclü əsasları yaradıldı. Ümummilli liderimiz müstəqil dövlətin qurulması kimi olduqca çətin və şərəfli missiyanı yerinə yetirməklə yanaşı, əhalinin sosial müdafiəsi sahəsində də misilsiz tarixi xidmətlər göstərib. Ulu öndərin imzaladığı fərman və sərəncamlar, qəbul etdiyi qərarlar nəticəsində pensiya və müavinətlərin orta aylıq məbləği 1995-2003-cü illər ərzində 8 dəfə artıb. Müharibə əlilləri və şəhid ailələrinin dövlət hesabına mənzillərlə, əlilliyi olan şəxslərin minik avtomobilləri ilə təminatına da məhz ötən əsrin 90-cı illərində ümummilli liderimiz Heydər Əliyev tərəfindən başlanılıb.



Ulu öndər Heydər Əliyevin sosial inkişaf kursunun 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, sosial təminat sisteminin bütün sahələrində olduğu kimi, müharibə əlillərinin və şəhid ailələrinin yeni mənzillərlə təminatında da mühüm addımların atıldığını vurğulayan S.Müslümov diqqətə çatdırıb ki, ötən il ölkəmizin müxtəlif bölgələrində yeni yaşayış evləri istifadəyə verilməklə, 174 nəfər müharibə əlili və şəhid ailəsi mənzillə təmin olunub. Ölkə başçısının 2014-cü il 20 iyun tarixli Sərəncamına əsasən, 2014-cü il yanvar ayının 1-dək mənzil növbəsinə dayanmış 5731 nəfər əlil və şəhid ailəsinin 2014-2018-ci illərdə mənzillə təmin edilməsi nəzərdə tutulur. Sərəncamın icrası işləri uğurla yerinə yetirilir. Hazırda müharibə əlilləri və şəhid ailələri üçün Bakıda 12 mərtəbəli 96 mənzilli, İmişli və Beyləqan rayonlarında hər biri 6 mərtəbəli 54 mənzilli, Şamaxı rayonunda 4 mərtəbəli 36 mənzilli yaşayış binaları, eyni zamanda respublikanın bölgələrində 379 ədəd fərdi ev inşa olunur. Bundan əlavə Bakı şəhərində 164, Sumqayıtda 6, Gəncədə 6, Mingəçevirdə 3 ədəd hazır binalarda mənzillər alınmışdır, onlarda təmir işləri aparılır və bu il təhvil veriləcəkdir.

Əlil və şəhid ailələri Milli Qurtuluş Günündə təqdim olunan bu yeni mənzillərin onların bayram sevincini ikiqat artırdığını vurğulayıb, bu böyük diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

**M.MUSTAFAYEV,**
**"Respublika".**